PARADIGMA, No.4, 2025, səh.1-7
https://doi.org/10.30546/30015.2025.01.4.1001

# İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ SÜNİ İNTELLEKT VASİTƏSİLƏ MƏDƏNİYYƏTLƏRARASI KOMPETENSİYANIN İNKİŞAFI

**N.A. Cavadova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: narminjavaadova@gmail.com

**Xülasə.** Süni intellekt (Sİ) alətləri ingilis dili tədrisində inqilabi dəyişikliklərə səbəb olur, xüsusilə də mədəniyyətlərarası kompetensiyaların inkişafında əsas alətlərdən biri kimi istifadə oluna bilər. Sİ virtual simulyasiyalar, çatbotlar və fərdiləşdirilmiş geri bildirim vasitəsilə öyrənənlərə risksiz mühitdə fərqli mədəni situasiyaları sınaqdan keçirmək imkanı yaradır. Araşdırma “Character AI” kimi alətlərin MK bacarıqlarını, empatiyanı və yaradıcı düşüncəni inkişaf etdirmək üçün istifadə edilə biləcəyini göstərir. Bununla belə, alətlərin etibarlılığı və mədəni stereotiplər riski kimi etik məsələlər müəllimlərin bu alətləri metodik çərçivədə istiqamətləndirməsini zəruri edir.

**Açar sözlər**: İngilis dili tədrisi, virtual simulyasiya, mədəniyyətlərarası səriştə, süni intellekt.

## Giriş

Texnologiyanın inkişafı həyatımızın hər sferasında olduğu kimi təhsildə də bir çox köklü dəyişikliklərə gətirib çıxarmış, təlim və tədrisin keyfiyyətinin inkişafında mühüm rol oynamışdır. Xüsusilə süni intellekt alətləri müasir dövrdə olduqca aktualdır, müəllim və tələbələrin dijital köməkçisinə çevrilmişdir. Müasir dövrdə Sİ-in ən geniş tətbiq edildiyi sahələrdən biri dil öyrənilməsidir. Qlobal statistikaya görə, 2025-ci ildə Sİ alətlərindən dil öyrənilməsi məqsədilə istifadə edənlərin sayı 360 milyona çatmışdır [8]. Hazırda bu alət həm müəllimlərin, həm də tələbələrin dilin öyrənilməsinə qarşı yanaşmalarını dəyişməkdədir. Məlumdur ki, ingilis dili qloballaşan dünyada mədəniyyətlərarası körpü funksiyasını daşıyır. Müasir dünyada istər beynəlxalq miqrasiya, rəqəmsal əlaqə, transmilli ticarət, istərsə də çoxmədəniyyətli şəhər mərkəzləri vasitəsilə, müxtəlif mədəni, dil və dini mənşəli şəxslər əməkdaşlıq edir və bir araya gəlirlər [5]. Ona görə də ingilis dilinin tədrisində mədəni kompetensiyalar, empatiya, və fərqli mədəniyyətlərlə kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi zəruridir. Lakin ənənəvi ingilis dili dərslərində mədəniyyətlərarası kompetensiya yetərincə inkişaf etmir, qrammatika, lüğət və ən yaxşı halda danışığın öyrədilməsi ilə məhdudlaşır. Bu da şagirdlərdə hələ də digər mədəniyyətlərlə bağlı stereotiplərin qalmasına səbəb olar. Sİ alətlərindən istifadə sürətli şəkildə artsa da, düşünürük ki, hələ də onun potensialından tam olaraq istifadə olunmayıb. Sİ alətlərinin düzgün istifadəsi ilə demək olar ki,

istənilən bacarığı formalaşdırmaq və inkişaf etidrmək olar. İnkişaf etdirilməsi mümkün olan bacarıqlara mədəniyyətlərarası kompetensiyalar da daxildir.

Bu prosesi daha da gücləndirən əsas amillərdən biri süni intellektin tədrisə inteqrasiyasıdır. Mədəniyyətlərarası dialoq simulyasiyalarının həyata keçirilməsi, avtomatik geri bildirim verən alətlər, adaptiv öyrənmə platformaları, səsli çatbotlar və digər interaktiv Sİ vasitələri öyrənənlərə müxtəlif mədəni situasiyaları risksiz bir mühitdə təcrübədən keçirməyə imkan yaradır. SQ Magazine (2025) kimi etibarlı analitik nəşrlər göstərir ki, süni intellekt 2025-ci ildə artıq eksperimental mərhələdən çıxaraq təhsilin ayrılmaz hissəsinə çevrilmişdir. Bu nəşr təhsil texnologiyaları sahəsində qlobal statistika və ekspert rəylərinə əsaslandığından, təqdim olunan məlumatlar Sİ-nin tələbələrin öyrənmə tərzini necə dəyişdirdiyini etibarlı şəkildə nümayiş etdirir. SQ Magazine-in hesabatına görə, süni intellekt dünyanın müxtəlif regionlarında öyrənənlərin nəyi və nə vaxt öyrənə biləcəyinə dair imkanları genişləndirərək təhsilin gələcəyini formalaşdırır. Beləlikə sürətli dəyişikliklərə müqaviməti olan təhsil sahəsi yenidən formalaşır. Bununla yanaşı süni intellektin tətbiqi hələ də müəyən narahatlıqlar doğurur. İstifadə edilən Sİ alətinin etibarlılığı, öyrənənlərin rəqəmsal savadlılığı, mədəni streotiplərin yaranması riski, etik məsələlər və müəllimin rolu kimi faktorlar mövzunun araşdırılmasını  labüdləşdirir. Müəllimlərin süni intelleki necə və hansı metodik çərçivədə tətbiq etməsi, hansı aləti seçməsi araşdırılması vacib məsələlərdəndir. Bu araşdırma süni intellekt vasitəsi ilə ingilis dili tədrisində mədəniyyətlərarası kompetensiyanı inkişaf etdirməyin mümkün yollarını müəyyənləşdirməyi hədəfləyir.

**Ədəbiyyat araşdırması**

Süni intellekt platformaları ingilis dili bacarıqlarının müxtəlif aspektlərinin – danışıq, yazı, qrammatik dəqiqlik, düzgün lüğət istifadəsi və tələffüzün inkişafında mühüm rol oynayır. “ChatGPT”, “Grammarly” və “ELSA” kimi alətlər öyrənənlərin dil səviyyəsini sistemli şəkildə inkişaf etdirmək üçün hədəfli və fərdiləşdirilmiş dəstək təqdim edir. Süni intellektin təhsildə tətbiqi ilə bağlı akademik müzakirələrdə bir çox nüfuzlu alimlərin araşdırmaları mühüm yer tutur. Məsələn, Wayne Holmes süni intellektin tədris prosesinə inteqrasiyasının potensialı və riskləri haqqında geniş tədqiqat apararaq qeyd edir ki, Sİ alətləri yalnız öyrənməni asanlaşdırmır, eyni zamanda pedaqoji məsuliyyət və etik çərçivə tələb edir. Neil Selwyn isə Sİ-in təhsildə sosial, etik və ideoloji təsirlərini araşdıraraq müəllim-öyrənən münasibətlərinin dəyişməsi və avtomatlaşdırılmış geribildirimin güclü və zəif tərəflərinə diqqət çəkir. Rose Luckin adaptiv öyrənmə sistemlərinin dizaynında koqnitiv və metakoqnitiv məlumatların rolunu vurğulayaraq Sİ-in fərdiləşdirilmiş təhsil imkanlarını ön plana çıxarır. Bundan əlavə, Benedict du Boulay süni intellektin öyrənən motivasiyası və özünüidarəetmə bacarıqlarına

təsirini araşdırmış, Chris Dede isə Sİ əsaslı öyrənmə mühitlərinin genişmiqyaslı tətbiqi və təhsil bərabərliyinə təsiri ilə bağlı nəzəri çərçivələr təqdim etmişdir. Bu alimlərin ümumi nəticələri göstərir ki, süni intellekt yalnız dil bacarıqlarının inkişafında deyil, həm də öyrənmə psixologiyası, motivasiya, reflektiv düşünmə və mədəni cəhətdən həssas təlim mühitlərinin qurulmasında həlledici rol oynayır. Bu tədqiqatlar süni intellektin təhsil sistemində transformativ bir güc olduğunu və onun tətbiqinin daha dərindən və çoxşaxəli şəkildə araşdırılmasının vacibliyini vurğulayır.

Sayit, Hamzah, N.M.A., Prianti və Sihole (2023) "ELSA" tətbiqinin istifadəçilərin tələffüzünü və danışıq performansını yaxşılaşdırdığını, bunun real ünsiyyət vəziyyətlərində özünəinamı artırdığını müəyyənləşdirmişlər. Araşdırmalar göstərir ki, Sİ-dən istifadə edən yazı tədrisi ingilis dili öyrənənlərinin yazı bacarıqlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırır [6]. Tədqiqatda Sİ-in təqdim etdiyi fərdiləşdirilmiş qrammatika, leksika və mətn quruluşu üzrə geribildirimin yazı məhsuldarlığını artırdığı müəyyən edilmişdir. Məhz buna görə də bir çox dil imtahanlarına hazırlıq prosesində əksər tələbələr və şagirdlər, hətta dərs materiallarının hazırlanmasında müəllimlər də geniş şəkildə Sİ alətlərində istifadə edirlər. Bu sürətli və dəqiq geribildirim almaq üçün olduqca effektivdir.

Bu nəticələr dil tədris proqramlarına süni intellekt alətlərinin inteqrasiyasının vacibliyini vurğulayır. Sİ platformaları öyrənənlərə davamlı, strukturlu və fərdiləşdirilmiş təcrübə imkanları təqdim edir ki, bu da ənənəvi tədris metodlarını tamamlayaraq daha səmərəli öyrənmə mühiti yaradır.

Hazırda Sİ-dən istifadə edən şagird, tələbə və müəllimlərin əsas istiqaməti yazı və danışıq bacarıqlarının inkişafı yönündə olsa da, bu alətləri daha effektiv şəkildə istifadə etmək də olar. Dil bacarıqlarının inkişafından kənara çıxsaq, Sİ əsaslı platformalar öyrənənlərin müxtəlif mədəni kontekstlərlə tanış olmasına şərait yaradaraq onların mədəniyyətlərarası kompetensiyasının formalaşmasına da mühüm töhfə verir. Bu sahədə Joseph Oluwaseyi tərəfindən aparılan ən əhatəli tədqiqatlardan biri göstərir ki, Sİ sosial qərəzləri müəyyənləşdirmək, yanlış məlumatlarla mübarizə aparmaq və inklüziv rəvayətləri təşviq etmək üçün strateji olaraq istifadə edilə bilər. O, rəqəmsal təhsildən sosial media moderasiyasına qədər qlobal kontekstlərdə mədəniyyətlərarası dialoqun və sosial birliyin təminatçısı kimi potensial nümayiş etdirir [5]. Belə ki, HelloTalk kimi tətbiqlər öyrənənlərə fərqli mədəniyyətlərdən olan istifadəçilərlə birbaşa ünsiyyət qurmaq imkanı yaradır və bu da onların mədəniyyətlərarası ünsiyyət bacarıqlarını gücləndirir. Xia, Y., Shin, S.-Y., və Kim, J.-C. (2024) qeyd edirlər ki, AI alətləri kommunikativ səmərəliliyi artırır və mədəni incəlikləri anlamağa yardım edir ki, bu da çoxmədəniyyətli mühitdə effektiv dil istifadəsi üçün əhəmiyyətlidir [9].

Bəzi Sİ platformalarında istifadəçilər öz istədikləri obrazları yarada bilərlər. Məsələn, "Character AI" saytı istifadəçiyə yaratdığı obraza adı, yaş, şəxsiyyət, maraq və hobbilər kimi keyfiyyətləri müəyyən etmək imkanı yaradır. Bu, istifadəçiyə tam nəzarət və fərdiləşdirmə imkanı verir. Beləliklə müəllimlər və şagirdlər istədikləri istiqamətdə yararlana bilərlər. Nümunə olaraq, Character AI vasitəsilə yaratdığımız Britaniyalı tələbə modelini göstərə bilərik. Bu obraz açıq fikirli, nəzakətli, mədəniyyətlərarası mövzulara maraqlı və empatikdir. Tələbələr bu xarakterlə söhbət edərək fərqli mədəniyyətləri öyrənə, suallar verə və mədəni fərqləri müqayisə edə bilərlər. Saytın istifadə alqoritmi və sistem olduqca sadə olduğu üçün rahatlıqla istifadə edilə bilər.

Sİ obrazları ilə ünsiyyət zamanı əldə edilən dialoqlar dərslərdə bir çox məqsəd üçün istifadə oluna bilər. Bu obrazlarla qurulan AI-əsaslı dialoqlar məktəb mühitində çoxşaxəli pedaqoji imkanlar yaradır və dərsin müxtəlif mərhələlərinə təbii şəkildə inteqrasiya oluna bilər. Belə ki, tələbələr fərqli mədəniyyətlərdən olan süni intellekt personajları ilə danışaraq mədəniyyətlərarası kommunikasiya bacarıqlarını real və praktik şəkildə inkişaf etdirə bilərlər. Müəllim dərs zamanı əvvəlcə bu personajlarla necə ünsiyyət qurulduğunu nümayiş etdirə, daha sonra tələbələri analoji dialoqlar qurmağa yönləndirə bilər. Şagirdlər əldə etdikləri söhbət mətnlərini və digər mədəniyyətlərlə bağlı öyrəndikləri yeni informasiyaları prezentasiya, esse, layihə kimi təqdim edə və digər yazılı və şifahi tapşırıqlar üçün material kimi istifadə edə bilərlər. İngilis dili dərslərində SI-əsaslı platformalar (məsələn, interaktiv chatbotlar, virtual səyahət simulyasiyaları) istifadə edilərək, real-dünya mədəniyyətlərarası situasiyaların təqlidi mümkün olur və bu, şagirdlərin mədəniyyətlərarası kompetensiyasını sistemli şəkildə artırır. Bu səbəbdən Sİ personajlarla dialoq həm dil öyrənməni, həm də sosial-emosional inkişafı gücləndirən innovativ bir vasitə kimi çıxış edir. Prosesin vizual nümayişi üçün söhbət ekran görüntüləri əlavə edilmişdir:




***Şəkil 1***

SI-nin rəqəmsal virtual simulasiya alətləri, mədəniyyətlərarası dialoqda emosional sahəni aktivləşdirərək, şagirdlərin qarşı tərəfin duyğularını daha yaxşı anlama və empatiya qurma bacarığını gücləndirir [10]. Bu texnologiyalar “dilin ifadə vasitəsi” kimi funksiyasını genişləndirir; mətn, səs, görüntü və hətta avatarlar vasitəsilə ingilis dilində mədəni kontekstlər təqdim olunur, bu da şagirdlərin həm dil, həm də mədəniyyət biliklərini paralel şəkildə inkişaf etdirir.




***Şəkil 2***

**Tədqiqatdakı boşluqlar və çətinliklər**

Lakin əldə olunan bu üstünlüklərlə yanaşı, mədəniyyətlərarası kompetensiyanın inkişafı sahəsində müəyyən çətinliklər də mövcuddur. Bir çox Sİ sistemlərində mədəni cəhətdən müxtəlif məzmunun məhdudluğu və mədəniyyətlərə dair məlumatların həddindən artıq sadələşdirilməsi öyrənənlərin fərqli mədəniyyətlər haqqında daha dərindən anlayış qazanmasına mane ola bilər. Bundan əlavə, mədəniyyətə həssas anlayışlar olan yumor və empatiyanın Sİ tərəfindən inteqrasiya olunması hələ də mürəkkəb məsələdir.Bundan başqa bir çox Sİ alətlərində rast gəlinən dəqiq olmayan rəylər, öyrənənlərdə çaşqılıqlar yarada bilər. Daha bir önəmli məsələ isə, tələffüz məşqləri zamanı kənar səs-küyün təqdim edilən mətni korlanmış formada ötürməsidir.

**Nəticə**

Sİ alətləri mədəniyyətlərarası səriştənin formalaşmasına böyük töhvələr verə bilər. Xia və b. vurğulayır ki, AI dialoq sistemləri daha müxtəlif mədəni perspektivləri daxil edilməlidir. Bu isə istifadəçi ilə qarşılıqlı əlaqəni və öyrənmə nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Bu tapıntılar AI platformalarının mədəni körpü rolunu oynaya biləcəyini, lakin onların dizaynının davamlı şəkildə təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir.

Sİ-in istifadəsi zamanı müəllim doğru alətin seçilməsinə və düzgün istiqamətverici sorğu mətninin yazılmasına diqqət yetirməlidirlər. Müasir dövrdə süni intellektdən düzgün istifadə, sorğu mətnin düzgün tərtib edilməsindən və doğru alətin seçilməsindən bilavasitə asılıdır. Müəllimlərin yenilənmiş Sİ modellərini sınamaları və mövcud yeniliklərdən xəbərdar olmaları dərs prosesinin səmərəliliyi üçün olduqca faydalı ola bilər.

**Ədəbiyyat**

1. Dede C., (2010), Comparing frameworks for 21st century skills, 21st century skills: Rethinking how students learn, Solution Tree Press, 51–76.
2. Du Boulay B., (2016), Artificial intelligence as an effective classroom assistant, IEEE Intelligent Systems, 31(6), 76–81.
3. Holmes W., Bialik M., Fadel C., (2019), Artificial intelligence in education: Promises and implications for teaching and learning, Center for Curriculum Redesign.
4. Luckin R., Holmes W., Griffiths M., Forcier L. B., (2016), Intelligence unleashed: An argument for AI in education, Pearson.
5. Oloyede J., (2025), Designing AI-driven frameworks to enhance intercultural understanding and peaceful coexistence, SSRN.

6. Sayit A. K., Hamzah A. Q. S., N. M. A., Prianti J., Sihole I. G., (2023), Promoting EFL students' speaking performance through ELSA Speak: An artificial intelligence tool in English language learning, Journal of Languages and Language Teaching, 11(4), 11–24.
7. Selwyn N., (2019), Should robots replace teachers? AI and the future of education, Polity Press.
8. SQ Magazine, (2025), AI in education: Statistics.
9. Xia Y., Shin S.-Y., Kim J.-C., (2024), Cross-cultural intelligent language learning system (CILS): Leveraging AI to facilitate language learning strategies in cross-cultural communication, Applied Sciences, 14(13), 5651.
10. Yang S., Zhao H., Luo W., (2024), The impact of artificial intelligence on intercultural communication, IntechOpen.

## DEVELOPMENT OF INTERCULTURAL COMPETENCE THROUGH ARTIFICIAL INTELLIGENCE IN ENGLISH LANGUAGE LESSONS

**N.A. Javadova**
Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan

**Abstract.** Artificial intelligence (AI) tools are causing transformative changes in English language teaching and can be used as one of the main instruments for developing intercultural competencies. Through virtual simulations, chatbots, and personalized feedback, AI provides learners with a risk-free environment to explore different cultural situations. Research shows that tools like Character AI can be used to develop intercultural skills, empathy, and creative thinking. However, ethical issues—such as the reliability of these tools and the risk of cultural stereotyping—make it essential for teachers to guide their use within a methodological framework.

**Keywords:** English language teaching, virtual simulation, intercultural competence, artificial intelligence.